# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının

# NİZAMNAMƏSİ

(V redaksiyada)

1.Umumi qaydalar

1.1. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası həmkarlar ittifaqları üzvlərinin və digər işçilərin iqtisadi, sosial, hüquqi, mənəvi mənafelərinin mudafiəsini ifadə edən, həyata keçirən sahə həmkarlar ittifaqlarının və Naxçıvan Muxtar Respublikasının sahələrarası birliklərinin könüllü ittifaqıdır.

Qeydiyyat tarixi: 26 may 1993-cü il.

Konfederasiya Azərbaycan Həmkarlar İttifaqları hərəkatını birləşdirir, üzv təşkilatların fəaliyyətini əlaqələndirir, onların hüquq və təminatlarının müdafiəsinə kömək edir.

1.2. Konfederasiyanın yaradılması haqqında Bəyannaməni imzalamış respublika həmkarlar ittifaqları, Naxçıvan Muxtar Respublikası həmkarlar ittifaqlarının sahələrarası birlikləri Konfederasiyanın təsisçiləridirlər.

1.3. Konfederasiya Azərbaycan Respublikasının Konstitusiyası və Qanunları çərçivəsində, bu Nizamnaməyə müvafiq surətdə fəaliyyət göstərir.

1.4. Konfederasiya qeyri-siyasi təşkilatdır. Azərbaycan Respublikasının dövlət və təsərrüfat orqanlarından və siyasi sisteminin digər vəsilələrindən asılı deyil, eyni zamanda üzv təşkilatların mənafeyi naminə fəhlə hərəkatları, ictimai təşkilatlarla əməkdaşlıq edir.

1.5. Azərbaycan həmkarlar ittifaqları beynəlxalq həmkarlar ittifaqları hərəkatının tərkib hissəsidir və onun Konfederasiyası öz fəaliyyətini dünya həmkarlar ittifaqları təşkilatları ilə bərabər hüquqlu, qarşılıqlı anlaşma və hörmət, beynəlxalq həmrəylik prinsipləri üzərində qurur, beynəlxalq həmkarlar ittifaqları təşkilatları və birlikləri ilə əməkdaşlıq edir.

2. Konfederasiyada üzvlük

2.1. Konfederasiyaya daxil olmaq haqqında qərar qəbul etmiş və Azərbaycan ərazisində fəaliyyət göstərən sahə həmkarlar ittifaqları, Naxçıvan Muxtar Respublikasının sahələrarası birlikləri Konfederasiyanın üzvləri ola bilərlər.

2.2. Təşkilatların Konfederasiyaya qəbulu həmin təşkilatın seçkili orqanının qərarı və qeydiyyatdan keçmiş Nizamnaməsi təqdim olunmaqla Konfederasiyanın Məclisi tərəfindən həyata keçirilir. Qəbul edilmədiyi hallarda həmkarlar ittifaqı birliyi Konfederasiyanın qurultayına müraciət edə bilər. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına üzv olmayan həmkarlar təşkilatları ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası müqavilə əsasında əməkdaşlıq edir.

2.3. Üzv təşkilat özünün seçkili orqanının (Plenum, Məclis, Qurultay, Konfrans) qərarını təqdim etməklə üç ay qabaqcadan Konfederasiyanın İcraiyyə Komitəsinə məlumat verərək onun tərkibindən Məclisin qərarı ilə çıxa bilər. Lazım gəldikdə qarşıya çıxan maliyyə və əmlakla əlaqədar problemlərin tənzimlənməsi şərtlərini müəyyən edən razılaşdırma komissiyası yaradılır və bu barədə Konfederasiyanın Məclisinə məlumat verilir.

2.4. Konfederasiyanın Nizamnaməsinə zidd fəaliyyət göstərən, üzürlü səbəb olmadan üç aydan artıq üzvlük haqqını ödəməyən üzv təşkilat Konfederasiyanın tərkibindən çıxarıla bilər. Çıxarılma haqqında qərar üzv təşkilatlarının azı üçdə iki hissəsini təmsil edən, Məclis üzvlərinin ən azı üçdə iki hissəsinin səs çoxluğu ilə Məclis tərəfindən qəbul edilir. Çıxarılmış üzv təşkilat qurultaya şikayət etmək huququnu özündə saxlayır.

2.5. Konfederasiya üzvlərinin aşağıdakı huquqları vardır:

2.5.1. Konfederasiyanın Məclisinə və İcraiyyə Komitəsinə öz nümayəndələrini seçmək, onları geri çağırmaq və əvəz etmək;

2.5.2. Öz nümayəndələri vasitəsilə Konfederasiya orqanlarının işində iştirak etmək, həmkarlar ittifaqı təşkilatının həyatına dair məsələlərin layihələrini onların müzakirəsinə vermək;

2.5.3. Həmkarlar ittifaqları fəaliyyətinin bütün məsələləri üzrə Konfederasiya orqanlarına müraciət etmək və zəruri informasiya, məsləhət və kömək almaq;

2.5.4. Konfederasiyanın Məclisindəki nümayəndələr vasitəsilə Konfederasiya orqanlarının fəaliyyətinə nəzarət etmək;

2.5.5. Bu Nizamnaməyə müvafiq olaraq Konfederasiyadan sərbəst çıxmaq.

2.6. Konfederasiyanın üzvləri:

2.6.1. Qəbul edilmiş proqramların əməli fəaliyyət planlarının həyata keçirilməsində Konfederasiya orqanlarının fəaliyyətini müdafiə edir və onların həyata keçirilməsi üzrə öz fəaliyyətləri barədə Konfederasiya orqanlarına məlumat verir. Təsdiq olunmuş formalar üzrə hesabat verir.

2.6.2. Konfederasiyanın seçkili orqanlarının bu Nizamnaməyə müvafiq olaraq qəbul edilmiş qərarlarını yerinə yetirir. Üzv təşkilatların rəhbərləri Konfederasiyanın kollegial orqanlarının qəbul etdiyi qərarların həyata keçirilməsinə şəxsən cavabdehdirlər. Qərarların yerinə yetirilməməsi halları Konfederasiyanın kollegial orqanlarının iclaslarında baxılır, bunun nəticələri haqqında məlumat üzv təşkilatlara göndərilir. Həmkarlar İttifaqlarının sahə prinsiplərinə uyğunluqları və sahələri aidiyyatı barədə rəyin verilməsi AHİK-in müstəsna səlahiyyətidir.

2.6.3. Üzv təşkilatların hüquq və mənafelərinin müdafiəsində qarşılıqlı həmrəylik göstərir;

Sahə həmkarlar ittifaqlarının fəaliyyətində və inkişafında parçalanmaya yol vermir, həmkarlar ittifaqları təşkilatlarının bir həmkarlar ittifaqlarından digərinə keçməsinə qarşı birgə çıxış edir, digər həmkarlar ittifaqına keçərkən həmkarlar ittifaqı üzvlüyünün saxlanması zəruriliyini qarşılıqlı surətdə qəbul edir.

Həmkarlar ittifaqı fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə həmkarlar ittifaqlarının yenidən qurulması üzrə üzv təşkilatlar tərəfindən mütləq baxılmalı olan təkliflər verir.

2.7. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası öz fəaliyyətini aşağıdakı demokratik prinsiplər əsasında qurur:

- sahə məsələlərinin həllində həmkarlar ittifaqı təşkilatlarının və orqanlarının müstəqilliyi;
- sahə təşkilatlarının Nizamnaməsinə müvafiq olaraq bütün həmkarlar ittifaqı orqanlarının seçkili olması;
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qərarlarının üzv təşkilatlarının nizamnaməsində və Azərbaycan Respublikası qanunvericiliklərində müəyyən olunmuş səlahiyyət həddində Beynəlxalq Əmək Təşkilatının Konvensiyalarına uyğun qəbul olunmuşsa, onların aşağı orqanlar üçün məcburi olması.

2.8. Həmkarlar ittifaqlarında hesabat-seçki kampaniyasının eyni müddətdə keçirilməsini Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası müəyyən edir;

3. Konfederasiyanın orqanları

3.1. Konfederasiyanın ali orqanı qurultaydır və Məclis tərəfindən **yeddi** ildə bir dəfədən gec olmayaraq çağırılır.

3.2. Qurultaya nümayəndəlik normalarını Konfederasiyanın Məclisi, nümayəndələrin seçilmə qaydası üzv təşkilatlar tərəfindən müəyyənləşdirilir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, müavinləri əvvəl seçildiyi və yaxud uyğun sahə təşkilatlardan qurultaya nümayəndə seçilirlər.

Qurultayın çağırılması və gündəliyi barəsində qərar ən azı üç ay qabaqcadan Məclis tərəfindən qəbul olunur.

3.3. Qurultay:

3.3.1. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Təftiş komissiyasının fəaliyyəti barədə hesabatı dinləyir.

3.3.2. Konkret dövr üçün Konfederasiyanın strategiyası və fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir. Konfederasiyanın Nizamnaməsini, Təftiş komissiyasının hesabatını və əsasnaməsini təsdiq edir.

3.3.3. Üzv təşkilatlar tərəfindən birbaşa nümayəndəlik prinsipi üzrə seçilmiş Məclis üzvlərinin səlahiyyətlərini təsdiq edir.

3.3.4. Qurultay nümayəndələri arasından Konfederasiyanın sədrini və təftiş komissiyasının üzvlərini seçir.

3.4. Qurultay üzv təşkilatlardan bərabər sayda seçilmiş nümayəndələrin ən azı üçdə iki hissəsi iştirak etdiyi halda səlahiyyətli hesab olunur, qurultayın qərarları sadə səs çoxluğu ilə qəbul edilir.

3.5. Qurultayın iş qaydası onun nümayəndələri tərəfindən müəyyənləşdirilir.

3.6. Konfederasiyanın növbədənkənar qurultayları sədr, Məclis tərəfindən və ya üzv təşkilatların azı üçdə bir hissəsinin tələbi ilə çağırılır. Qurultayın çağırılması haqqında qərar və onun gündəliyi azı bir ay qalmış elan edilir.

3.7. Məclisin və Təftiş komissiyasının nümayəndə seçilməmiş üzvləri qurultayın işində məşvərətçi səslə iştirak edirlər.

3.8. Konfederasiyanın Məclisi

3.8.1. Qurultaylararası dövrdə Konfederasiyanın ali orqanı bütün üzv təşkilatların birbaşa və bərabər sayda nümayəndə göndərməsi prinsipi üzrə yaradılan Məclis sayılır. Hər bir üzv təşkilat öz qurultaylarında (konfranslarda) və ya plenumlarında seçilməklə Məclisin tərkibinə 5 nəfər üzv göndərir. Məclis üzvlərinin vəkaləti qurultayda təsdiq edilir.

3.8.2. Konfederasiyanın Məclisi: Dövlət səviyyəsində və beynəlxalq məsələlərdə üzv təşkilatların ümumi mövqeyini, taktikasını və fəaliyyətinin əsas istiqamətlərini işləyib hazırlayır.

3.8.3. Üzv təşkilatların hüquq və mənafelərinə toxunan qərarların ləğv edilməsi, dayandırılması və ya dəyişdirilməsi haqqında dövlət hakimiyyət və idarəetmə orqanları qarşısında tələblər irəli sürür, bu məqsədlə respublika qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün vasitələrdən istifadə edir.

3.8.4. Konfederasiyanın İcraiyyə Komitəsi tərəfindən təqdim edilmiş proqram və planların həyata keçirilməsini, üzvlük haqlarından ayırmaların faizini təsdiq edir.

3.8.5. Məclis üzvləri arasından Konfederasiya sədrinin müavinlərini seçir, maliyyə hesabatını təsdiq edir.

3.8.6. Konfederasiyaya yeni üzvlərin qəbulu, üzv təşkilatların nümayəndələrinin təsdiqi, Məclis və Təftiş komissiyasının üzvlərinin dəyişdirilməsi barədə qərarları təsdiq edir.

3.8.7. Konfederasiyanın mətbuat orqanlarını təsis edir və baş redaktorunu təsdiq edir.

3.9. Məclisin iclasları zəruri hallarda, lakin ildə bir dəfədən az olmayaraq və yaxud üzv təşkilatların üçdə birinin tələbi ilə çağırılır.

3.10. Konfederasiyanın sədri və onun müavinləri Məclisin üzvləridir, Məclisə hesabat verirlər.

3.11. Qurultaylararası dövrdə Konfederasiyanın üzv təşkilatlarının ən azı yarısının təşəbbüsü ilə, Məclisin qərarı ilə Konfederasiyanın sədrinin müavinləri tutduğu vəzifədən azad edilə və seçilə bilərlər. Qərar o zaman qəbul edilmiş hesab olunur ki, Məclisdə iştirak edən üzvlərin azı üçdə iki hissəsi ona səs versin.

3.12. Məclisin iclasları Məclis üzvlərinin yarısından çoxunun iştirakı ilə səlahiyyətli sayılır. Məclisin qərarları sadə səs çoxluğu ilə yetərsay olduqda qəbul olunur. Səsvermənin qaydaları bu Nizamnamədə nəzərdə tutulan hallar istisna olmaqla Məclis tərəfindən muəyyənləşdirilir.

3.13. İcraiyyə Komitəsi

3.13.1. İcraiyyə Komitəsi: Məclisin iclaslararası dövründə Konfederasiyanın icraiyyə-sərəncamverici orqanıdır. Tərkibi Konfederasiyanın sədri, onun müavinləri və hər bir üzv təşkilatların bir nəfər səlahiyyətli nümayəndəsindən ibarətdir. Tərkib Məclis tərəfindən təsdiq edilir.

Sahə həmkarlar ittifaqının nümayəndələri Konfederasiyanın sədri, sədr müavini seçilirsə və ya sahə həmkarlar ittifaqları ilə əlaqələrini itirərsə, onların yerinə AHİK-in orqanlarına yeni üzvlər təklif olunur.

3.13.2. Azərbaycan Respublikasının dövlət hakimiyyət və idarəetmə orqanlarında üzv təşkilatların mənafelərini təmsil və müdafiə edir. Qanunvericilik və digər normativ aktların ekspertizasını həyata keçirir, müvafiq məsələlər üzrə layihələr hazırlayır, işçilərin sosial, huquq və mənafelərinə toxunan problemləri təhlil edir, qanunverici və idarəetmə orqanlarına təqdimat verir.

3.13.3. Üzv təşkilatların mənafeyi naminə həmkarlar ittifaqlarının digər birlikləri ilə əməkdaşlıq edir, xarici ölkələrin həmkarlar ittifaqı təşkilatları, beynəlxalq həmkarlar ittifaqı birlikləri ilə əlaqələri inkişaf etdirir və möhkəmləndirir.

3.13.4. Mətbuatla əlaqə yaradır, dövri mətbuat, radio, televiziya vasitəsilə işçiləri, bütün əhalini həmkarlar ittifaqlarının fəaliyyəti, onların mövqeyi, işçilərin qanuni mənafeyi və sosial hüquqlarının müdafiəsi sahəsində gördükləri iş barəsində geniş və operativ şəkildə məlumatlandırır.

3.13.5. Üzv təşkilatları ilə birgə iş aparır, onların fəaliyyəti ilə bağlı normativ sənədlər və təlimatlar hazırlayır, həmkarlar ittifaqları kadrlarının düzgün yerləşdirilməsinə və səmərəli istifadəsinə nəzarət edir və fəallarının təhsilini təşkil edir, həmkarlar ittifaqlarının iş təcrübəsini ümumiləşdirib yayır, həmkarlar ittifaqlarının fəaliyyəti barədə materiallar nəşr edir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcra aparatının strukturunu və şöbə müdirlərini, üzv təşkilatların şöbə müdirlərini təsdiq edir, onun gəlir və xərclərinin smetasını hər il müəyyən edir və təsdiq edir.

Üzv təşkilatların aparatlarına və onların bütün təşkilatlarına yeni və əlavə ştat vahidlərinin verilməsi AHİK-in müstəsna səlahiyyətidir. Həmkarlar ittifaqlarının bütün təşkilatlarında əmək haqları AHİK tərəfindən tənzimlənir.

3.13.6. Konfederasiyanın tabeliyində olan müəssisə, təşkilat və idarələrin, o cümlədən idman, turizm-səyahət, mədəni-maarif müəssisələrin və səhmdar cəmiyyətlərin və digər təşkilatların işinə rəhbərlik edir. Konfederasiyanın üzv təşkilatlarının seçkili rəhbər vəzifələrinə namizədlər təklif edə bilər.

Konfederasiyanın sədrinin və ya İcraiyyə Komitəsinin təqdimatı ilə Konfederasiyanın kollegial orqanların qərarlarının yerinə yetirməyən üzv təşkilatların

rəhbərlərinin fəaliyyətini müzakirə edir və müvafiq qərarların qəbul edilməsi üçün üzv təşkilatlara məlumat verir.

3.13.7. Qurultayın və Məclisin qəbul etdiyi qərarların yerinə yetirilməsini təşkil edir.

3.13.8. Üzv təşkilatların müqavilə əsasında həvalə etdiyi digər məsələləri həll edir.

3.13.9. Fəaliyyəti haqqında Məclisə hesabat verir.

3.14. İcraiyyə Komitəsinin iclasları zəruri hallarda, lakin rübdə bir dəfədən az olmamaq şərtilə keçirilir.

3.15. İcraiyyə Komitəsinin iclasları üzvlərinin yarısından çox hissəsi iştirak etdikdə səlahiyyətli sayılır və qərarlar sadə səs çoxluğu ilə qəbul olunur.

3.16. Konfederasiyanın orqanlarının qəbul etdiyi qərarların yerinə yetirilməsini yoxlayır və ona nəzarət edir.

3.17. Əməyin texniki və hüquq müfəttişlərinin, etimadlı həkimlərin fəaliyyətinə rəhbərlik edir, onların ştatlarını və kadr məsələlərini həll edir.

3.18. Sosial-sığorta, işçilərin sağlamlığının, sosial təminatı və hüquqlarının müdafiəsi sahəsində ümumi işlərə nəzarət edir.

3.19. Həmkarlar ittifaqı büdcəsi, dövlət sosial-sığorta büdcəsi sahəsində həmkarlar ittifaqı təşkilatlarının maliyyə işləri üzrə fəaliyyətlərinə nəzarət edir, üzv təşkilatlara ilk təşkilatlarından üzvlük haqlarının, ayırmalarının minimum məbləğini müəyyən edir, hesabatların vaxtında Konfederasiyaya təqdim olunmasını təmin edir. Üzv təşkilatların həmkarlar ittifaqı büdcəsini təsdiq edir.

3.20. Konfederasiyanın sədri Məclisin və İcraiyyə Komitəsinin fəaliyyətinə rəhbərlik edir, üzv təşkilatlar tərəfindən verilmiş səlahiyyətlər daxilində hökumət orqanları, habelə beynəlxalq təşkilatlarla danışıqlar aparır, müqavilələr bağlayır, həmkarlar ittifaqlarının bütün vəsaitindən və əmlakından istifadəyə nəzarət edir.

3.21. Həmkarlar ittifaqlarının ümumi mənafelərinə və fəaliyyətlərinə zidd olan həmkarlar ittifaqlarında həmrəyliyin pozulmasına və parçalanmaya yönəldilmiş üzv təşkilatlar tərəfindən qəbul olunmuş hər bir qərarın ləğv olunması barədə məsələlərə baxır və lazım gələrsə İcraiyyə Komitəsinə məsələni müzakirəyə çıxarır.

3.22. Üzv təşkilatlar arasındakı münaqişəli məsələlərin həllində münsif funksiyasını yerinə yetirir, üzv təşkilatın qərarı haqqında həmkarlar ittifaqı üzvünə ekspert rəyi və izah verir.

## 4. Konfederasiyanın vəsaiti və əmlakı

4.1. Konfederasiyanın vəsaiti üzvlük haqqından, təsərrufat, kommersiya, xarici-iqtisadi və qanunla qadağan olunmayan fəaliyyəti hesabına gəlirlərdən yaranır.

4.2. Konfederasiyanın bütün vəsaiti və əmlakı həmkarlar ittifaqları haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

4.3. Konfederasiyanın mülkiyyətindən müstəqil və tam istifadə etmək hüququ özünün müvafiq komissiyası vasitəsilə İcraiyyə Komitəsinin səlahiyyətinə daxildir.

4.4. İcraiyyə Komitəsi fondlar, müəssisələr, təşkilatlar, cəmiyyətlər, banklar yarada bilər, səhmlər alır, habelə Konfederasiyanın məqsəd və vəzifələrinə cavab verən qanunla qadağan olunmayan digər fəaliyyət növlərini həyata keçirir.

4.5. Qurultayda təsdiq olunmuş əsasnaməyə müvafiq olaraq fəaliyyət göstərən Konfederasiyanın Təftiş komissiyası İcraiyyə Komitəsi vəsaitinin sərf edilməsinə nəzarəti həyata keçirir.

4.6. Konfederasiya qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət orqanlarına statistik hesabatlar təqdim edir.

4.7. Konfederasiyanın maliyyə ili 1 yanvar – 31 dekabradək olan dövrü əhatə edir.

5. Yekun muddəalar

5.1. Konfederasiya hüquqi şəxs sayılır, öz möhürü, ştampı və banklarda hesabları (o cümlədən, valyuta hesabı) vardır. Konfederasiya AHİŞ-in, o cümlədən, onun vəsaitinin, mülkiyyətinin və əmlakının hüquqi varisidir.

5.2. Konfederasiya onun qurultayının qərarına əsasən ləğv edilə bilər. Qərar o zaman qəbul edilmiş hesab olunur ki, üzv təşkilatların azı üçdə iki hissəsi bu qərara səs versin.

Konfederasiya ləğv edilərsə, bu halda onun vəsaiti və əmlakı qurultay tərəfindən müəyyən edilən məqsədlər üçün istifadə olunur.

5.3. Nizamnaməyə dəyişikliklər və əlavələr müstəsna hallarda Məclisdə qəbul edilə bilər.

Konfederasiyanın ünvanı:
Bakı şəhəri, Gənclər meydanı, 3.